# Əməkhaqqı Hesablaması (Payroll)

## TƏLİM PROQRAMI

## Ümumi məlumat

**Təlimin adı:** Əməkhaqqı Hesablaması (Payroll)
**Təlimin məqsədi:** Təlimin məqsədi iştirakçılara əməkhaqqının hesablanmasını yalnız nəzəri səviyyədə deyil, qanunvericiliyə uyğun, praktik və avtomatlaşdırılmış formada icra etmə bacarığı qazandırmaq, real iş mühitində vergilər, əlavələr, məzuniyyət və sosial ödənişlər daxil olmaqla əməkhaqqını səhvsiz və sistemli şəkildə formalaşdırmağı öyrətməkdir.
**Müddət:** 18 saat
**Dərs sayı:** 9
**Dərs cədvəli:** Həftənin 1 və 3-cü günləri, saat 19:00 - 21:00
**Format:** Əyani, real nümunələr, praktiki tapşırıqlar
**Tədris təcrübəsi:** 9 il, 48 sessiya
**Məzun sayı:** 500+
**Modul sayı:** 1
**Təlimçi sayı:** 1
**Təlimçi:** Aytən Əlizadə
Aytan Alizada | LinkedIn
**Qiymətləndirmə:** - Təlim sonu imtahan
**Təlimin sonunda təqdim edilən nəticə sənəd:** Sertifikat (iştirakçı və ya müvəffəqiyyət)

## Təlimin üstünlükləri

- Əməkhaqqı hesablaması sıfırdan sistemli və qanunvericiliyə uyğun izah olunur
- Dövlət, neft-qaz və qeyri-neft sektoru üzrə fərqli hesablama mexanizmləri praktiki şəkildə göstərilir
- Excel üzərində əməkhaqqı cədvəlinin qurulması və avtomatlaşdırılması öyrədilir
- Hər mövzu üzrə praktik tapşırıqlar həll edilir – sadəcə dinləmə deyil, real hesablama aparılır
- İmtahan və nəticə əsaslı qiymətləndirmə
- Etibar və etimad edilən sertifikat

## Təlimin auditoriyası

- HR mütəxəssisləri və HR menecerləri
- Mühasiblər və əməkhaqqı üzrə mütəxəssislər
- Əməkhaqqı hesablamasını icra edən kadr mütəxəssisləri
- Maliyyə və insan resursları sahəsində fəaliyyət göstərən rəhbərlər
- Əməkhaqqı hesablanmasını peşəkar səviyyədə öyrənmək istəyən şəxslər

## Təlimi bitirdikdən sonra iştirakçı:

- Əməkhaqqını (Gross və Net) qanunvericiliyə uyğun və sektorundan asılı olmayaraq düzgün hesablayacaq
- Əməkhaqqına dair bütün əlavələri və iş rejimi üzrə ödənişləri (artıq iş, gecə işi, zərərli şərait və s.) düzgün tətbiq edəcək
- Vergi və məcburi tutulmaları (gəlir vergisi, sosial və tibbi sığorta, işsizlik sığortası və s.) səhvsiz hesablayacaq
- Məzuniyyət, orta əməkhaqqı, kompensasiya və digər sosial müavinətləri qanunvericiliyə uyğun hesablayacaq
- Ezamiyyə və əməkhaqqından tutulmalar üzrə hesablamaları qanunvericiliyə uyğun icra edəcək
- Excel üzərində əməkhaqqı hesablamasını avtomatlaşdıraraq hesabat üçün hazır və sistemli məlumat formalaşdıracaq

## Təlim proqramı

**Əməkhaqqı ilə bağlı ümumi anlayışlar və hesablamalar:**

İnsan Resuslarının idarə edilməsində əməkhaqqı hesablanmasının rolu;
Qanunvericiliyə əsasən əməkhaqqı hesablanması anlayışı;
Minimum əməkhaqqı anlayışı və Əmək pensiyalarının minimum məbləğinin əməkhaqqı hesablamada rolu;
Əməyin ödənilməsi sistemləri və növləri:

- İşəmuzd əməkhaqqı;
- Vaxtamuzd əməkhaqqı.

Hesablanmış əmək haqqı (Gross) və Xalis əmək haqqı (Net) anlayışları:

- Dövlət və neft-qaz sektoru üzrə əməkhaqqı hesablanması;
- Qeyri neft-qaz və özəl sektor üzrə əməkhaqqı hesablanması.

**Əməkhaqqına əlavələr**

Əmək haqqına əlavələrin növləri;
Əmək şəraiti ilə əlaqədar əlavələr:

- Ağır və zərərli iş;
- Xüsusilə ağır və zərərli iş.

İş rejimi ilə əlaqədar əlavələr:

- İş vaxtından artıq iş;
- Qeyri-iş günü iş.

Başqa işçinin əmək funksiyasının icrasına görə əlavələr:
- Müvəqqəti əvəzetmə;
- Boş vəzifənin icrası.
Gecə vaxtı görülən işə görə əlavələrin hesablanması:
- Gecə vaxtı iş anlayışı;
- Növbəli iş qrafiki;
- Çoxnövbəli iş qrafiki.

**Cəmlənmiş uçot**
Cəmlənmiş uçotun mahiyyəti və tətbiqi sahələri;
Cəmlənmiş uçotun hesablanma qaydaları;
Növbəli qrafiklə cəmlənmiş uçotun birgə tətbiqi.

**Vergi tutulmaları (Muzdlu işdən əldə edilən gəlirlər üzrə)**
Gəlir vergisi:
Gəlir vergisinin hesablanması;
Fiziki şəxsin gəlir vergisindən azadolmalar;
Məzuniyyət kompensasiyası zamanı gəlir vergisinin və digər vergilərin hesablanması.
Məcburi dövlət sosial sığorta haqqı:
Məcburi dövlət sosial sığorta haqqının hesablanması;
Məcburi dövlət sosial sığorta haqqının hesablanmasından güzəştlər;
İcbari tibbi sığorta:
İcbari tibbi sığortanın hesablanması.
İşsizlik sığortası;
İşsizlik sığortasının hesablanması;
Bütün növ ödəmələr üzrə vergilərin tutulması qaydaları.

**Əmək məzuniyyəti**
Məzuniyyətin növləri;
Əmək məzuniyyətinin hesablanması qaydaları;
Əmək məzuniyyətinin hesablanmasına dair istisna hallar;
Məzuniyyət haqqı ödənilərkən nəzərə alınan və alınmayan əmək haqqı növləri;
Məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması:
Əmsallaşdırmanın mahiyyəti;
Kütləvi artımın mahiyyəti;
Əmsallaşdırmanın tətbiqi ilə bağlı məsələlər.
İstifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiyanın hesablanması;
Əmək məzuniyyətindən geri çağrılma ilə bağlı məzuniyyət hesablama qaydaları;
Əmək məzuniyyətində olan işçinin əmək qabiliyyətini itirdiyi zamanı tətbiq

olunan hesablamalar;
Artıq istifadə edilmiş məzuniyyət pulunun tutulması qaydaları;

**Orta əməkhaqqı və orta aylıq əməkhaqqı**
Orta əməkhaqqı və orta aylıq əməkhaqqı anlayışları;
Orta əmək haqqının hesablanması;
Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənişlər;
Təhsil və yaradıcılıq məzuniyyətlərinin hesablanması;
Orta əmək haqqı saxlanılan hallar;
Müəssisənin ləğvi və ixtisarla əlaqədar müavinətin hesablanması

**Əmək qabiliyyətinin itirilməsinə görə müavinətin hesablanması**
Sosial sığorta hadisəsi və buna görə ödəmələr;
Əmək qabiliyyətinin itirilməsinə görə müavinətin verilmədiyi hallar;
Müavinətin hesablanması qaydaları:
- Xəstəlik 14 gündən artıq dövrü əhatə etdikdə hesablamada nəzərə alınmalı nüanslar;
- İşçi əsas və əlavə iş yerlərində işlədikdə müavinətin hesablanma qaydası;
- İşçinin son 12 ayında qazancı olmadıqda hesablanmanın aparılma qaydası;
- "Müavinətin aylıq maksimal həddi yaşa görə əmək pensiyasının baza hissəsinin 25 mislindən artıq ola bilməz" ifadəsinə əsasən müavinətin hesablaması;
- "Faktiki qazanc 2 aylıq vəzifə maaşının məbləğindən artıq ola bilməz" ifadəsinə əsasən müavinətin hesablaması;

Müavinat hesablayarkən mükafat və əlavələrin hesablanması qaydaları.
Yalnız işəgötürən tərəfindən müavinətin ödənildiyi hallar;
Müavinətin hesablanması zamanı vergilərin tutulması qaydaları.
Əmək qabiliyyətinin itirilməsinə görə bülletenin E-gov portalına daxil edilməsinin izahı

**Digər sosial müavinətlərin hesablanması**
Hamiləliyə və doğuşa görə məzuniyyət zamanı verilən müavinət:
Müavinətin hesablanması ilə bağlı məsələlər;
Hamiləliyə və doğuşa görə müavinətin hesablanması ilə əmək qabiliyyətinin itirilməsinə görə müavinətin hesablanması arasındakı fərqlər;
Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinət:
Müavinətin hesablanması, təyin edilməsi və verilməsi ilə bağlı digər məsələlər.
Uşağın anadan olmasına görə birdəfəlik müavinət və onun ödənilməsi;
Dəfn üçün müavinət və onun ödənilməsi.
Digər sosial müavinətlərin E-gov portalına daxil edilməsinin izahı

**Ezamiyyə**
Ezamiyyə haqqında qanunvericilik aktları barədə ümumi məlumat;
Ezamiyyə xərcinin hesablanması:
- Respublika daxili ezamiyyənin hesablanması;
- Respublika xarici ezamiyyənin hesablanması.

**Əməkhaqqından tutulmalar**
Tutulmanın növləri;
Əmək haqqından tutulmalara yol verilən hallar;
Tam maddi məsuliyyət halları;
Əmək haqqından tutulan məbləğlərin miqdarının məhdudlaşdırılması;
Aliment və alimentin tutulmadığı məbləğlər;
İcra sənədləri üzrə tutulmalar və icra sənədlərinin tutulmadığı məbləğlər.

**Əməkhaqqı hesablamasının avtomatlaşdırılması (Microsoft Excel üzərinidə)**
Əməkhaqqı hesalanma cədvəlinin hazırlanması;
Əməkhaqqı ilə bağlı funksiya və formulalarının izahı;
Yekun cədvəldə əməkhaqqının hesablanması.

**Əmək haqqı ilə bağlı məcburi dövlət hesabatlılığının işlənməsi**
Statistik hesabatların verilməsi
- 4 əmək hesabatı
- 1 əmək hesabatı
Vahid Muzdlu Bəyamnamənin hazırlanması üçün lazım olan məlumatların toplanması və online vergi portalında işlənməsi.

**Qeyd:** Hər keçirilən mövzuya uyğun olaraq praktiki çalışmalar iştirakçılar tərəfindən həll edilir.